# «Bakı prosesi» sülh və əməkdaşlığı möhkəmləndirən qlobal platformadır

**İnkişafın modernləşmə mərhələsini yaşayan Azərbaycan son on ildə Cənubi Qafqaz regionunda mühüm rolu, mövqeyi ilə seçilən dövlətə çevrilib. Şübhəsiz, bu, heç də yalnız respublikamızın zəngin təbii sərvətləri, intellektual resursları ilə şərtlənmir. Oxşar tərəqqi yolu keçmiş əksər ölkələrdə olduğu kimi, Azərbaycanda da hər bir vətəndaşın mənafeyinə cavab verən inkişaf strategiyasının həyata keçirilməsi lider amili ilə bağlıdır.**

Ölkə diplomatiyasının qısa zaman ərzində beynəlxalq səviyyədə əldə etdiyi uğurların əsas səbəbi də məhz xarici siyasətdə varisliyin təmin edilməsi və Heydər Əliyev siyasi kursunun müasir reallıqlara uyğunlaşdırılmaqla tətbiqidir. Azərbaycan Prezidenti İlham Əliyevin son 14 ildə xalqın və dövlətin mənafeyinə əsaslanmaqla yürütdüyü praqmatik siyasət XXI əsrin başlanğıcında respublikamızın bölgədə və dünyada layiqli yer tutmasını, regional liderliyini təmin edib. Dövlət başçısının yürütdüyü uğurlu diplomatiya dünyada gedən mürəkkəb, ziddiyyətli proseslər fonunda respublikanın siyasi müstəqilliyini və milli təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, onu qlobal əhəmiyyətli tədbirlərin əsas təşkilatçısına çevirib. Bu gün Azərbaycanın regionun irəlidə gedən dövləti olaraq transmilli enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilməsi, Avropanın enerji təhlükəsizliyində mühüm rol oynaması, eləcə də multikultural və tolerant məkan olması qlobal səviyyədə etiraf edilir.

Bunun nəticəsidir ki, xüsusən ötən 10 ildə dünyada sülh, sabitlik və təhlükəsizlik problemlərinin həllinə, eləcə də tolerant və multikultural ideyaların təbliğinə xidmət edən qlobal formatlı forumlar, konfranslar məhz Bakı şəhərində keçirilir. Beynəlxalq səviyyədə "Bakı prosesi"nin tərkib hissəsi kimi dəyərləndirilən bu təşəbbüslər Azərbaycanın Şərqlə Qərbi təkcə əlverişli tranzit və enerji-kommunikasiya imkanları ilə deyil, həm də mədəni-mənəvi tellərlə bağlayan ölkə olduğunu bir daha göstərir.

## Mədəniyyətlərarası dialoq: həmrəyliyin səsi

Sürətlə qloballaşan dünyada sivilizasiyalar arasında münasibətlərin yeni formaları yaranır, dəyərlər sistemində dəyişikliklər baş verir, fərqli düşüncə mədəniyyəti formalaşır. Bütün bu amillər humanitar məsələlərin müzakirəsi istiqamətində də yeni platformanı formalaşdırmaq zərurətini yaradır. Bu zərurəti nəzərə alan Azərbaycan humanitar əməkdaşlığın gündəliyini müəyyənləşdirən fərqli və ən vacib təşəbbüslərlə çıxış edir.

Xatırlatmaq yerinə düşər ki, Prezident İlham Əliyev hələ 2008-ci ilin dekabrında Avropa ölkələri mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfransında "Bakı prosesi" ideyasını irəli sürməklə paytaxtımızın beynəlxalq miqyaslı tədbirlərin mərkəzi statusu almasını təmin edib. 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələrinin iştirak etdiyi bu konfransda Azərbaycanın təşəbbüsü ilə ilk dəfə olaraq "Mədəniyyətlərarası dialoqun təşviqinə dair Bakı Bəyannaməsi" qəbul edilib. Bəyannamədə İslam və Qərb sivilizasiyaları, eləcə də müxtəlif xalqlar və mədəniyyətlər arasında dialoqun inkişafı məqsədilə irəli sürülmüş "Bakı prosesi" təşəbbüsü dəstəklənib.

Konfransda Prezident İlham Əliyevin çıxışı zamanı irəli sürdüyü təkliflər və tövsiyələr tədbirin beynəlxalq əhəmiyyətini daha da artırıb. Dövlət başçısı xüsusi olaraq vurğulayıb: "Mən çox istərdim ki, bu gün əsası qoyulan "Bakı prosesi" uzunmüddətli olsun. Bu konfransın keçirilməsindən sonra konkret mexanizmlər işlənilsin, fəaliyyət planı hazırlansın. Belə tədbirlərin keçirilməsi həm Bakıda, həm də digər şəhərlərdə ənənəyə çevrilsin". Bununla da respublikamızın paytaxtında müxtəlif beynəlxalq tədbirlərin keçirilməsi intensiv xarakter alıb. Bu, həm də demoktratikləşmə proseslərinin, sosial-iqtisadi inkişafın, ən əsası, müxtəlif mədəniyyətlərin qorunması və təbliğinin xarici siyasətə təsiri kimi reallaşıb.

"Bakı prosesi"nin davamlığının təmini məqsədilə 2009-cu ildə paytaxtda keçirilmiş İslam ölkələrinin mədəniyyət nazirlərinin VI konfransına Azərbaycanın təşəbbüsü ilə 10-dan çox Avropa dövlətinin təmsilçisi də dəvət olunub. Konfransda Avropa Şurasına və İslam Konfransı Təşkilatına üzv dövlətlərin iştirakı ilə "Mədəniyyətlərarası dialoq" mövzusunda "dəyirmi masa" keçirilib və birgə kommünike qəbul edilib.

Ötən 10 ildə paytaxtımızda təşkil edilən forumların sayının daha da artması "Bakı prosesi"nin bəşəri ideyaların təşviqi və təbliği baxımından uğurlu platforma olduğunu bir daha təsdiqləyir. Birləşmiş Millətlər Təşkilatı Baş katibinin 2017-ci ilin sentyabrında keçirilmiş BMT Baş Assambleyasının 72-ci sessiyasındakı "Dünyanın rifahı naminə sülh mədəniyyətinin, dinlərarası və mədəniyyətlərarası dialoqun, qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviqi" mövzusunda məruzəsində 2008-ci ildən etibarən müvəffəqiyyətlə reallaşdırılan "Bakı prosesi"nin əhəmiyyətini xüsusi vurğulaması respublikamızın mədəniyyətlərarası dialoqa verdiyi töhfələrin beynəlxalq miqyasda etirafı kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyevin 17 noyabr 2017-ci il tarixli "Bakı prosesi"nin 10-cu ildönümünün qeyd edilməsi haqqında" sərəncamı da prosesin təkcə Azərbaycan deyil, ümumən bəşəriyyət üçün əhəmiyyətindən xəbər verir. Sərəncamın preamblua hissəsində "Bakı prosesi"nin xalqlar və mədəniyyətlər arasında uğurlu əməkdaşlıq platforması olduğu bir daha vurğulanır: "Ötən on il ərzində ölkədə "Bakı prosesi" çərçivəsində, həmçinin bu təşəbbüsün məqsədləri istiqamətində çoxsaylı beynəlxalq tədbirlər və layihələr gerçəkləşdirilmişdir. UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları BMT və strukturlarının mədəniyyətlərarası dialoqun qurulması və inkişafı, irqi ayrı-seçkiliyə və dözümsüzlüyə qarşı mübarizə sahəsində qlobal platforma statusu qazanmışdır. 2016-cı ilin aprelində BMT Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi bu uğurlu prosesin və fəaliyyətin nəticəsidir".

Dövlət başçısının sözügedən sərəncamına əsasən, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi aidiyyəti dövlət qurumları ilə birgə - tərəfdaş beynəlxalq təşkilatların təkliflərini nəzərə almaqla - "Bakı prosesi"nin 10-cu ildönümünün qeyd edilməsinə dair tədbirlər planı hazırlayıb həyata keçirməlidir. Bundan əlavə, sərəncamla tədbirlərin təşkilatçılığı üzrə əlaqələndirici orqan - müəyyən edilmiş nazirlik iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsini təmin etməlidir.

Belə bir sərəncamın imzalanması "Bakı prosesi"nin sivilizasiyalararası dialoq və əməkdaşlıq ideyalarının praktiki baxımdan gerçəkləşməsinə verdiyi töhfələrlə şərtlənir. İlkin mərhələdə regional təşəbbüs olaraq siyasi həyata vəsiqə alan "Bakı prosesi"nin sonradan ən müxtəlif səviyyələrdə dəstəklənərək qlobal hərəkata çevrilməsi də Prezident İlham Əliyevin xidmətləri ilə bağlıdır: 2010-cu ildə BMT Baş Məclisinin 65-ci sessiyasında çıxış edən dövlətimizin başçısı növbəti il Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsini elan edir. Həmin təşəbbüs əsasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu iki ildən bir Azərbaycanda təşkil edilir. Xatırladaq ki, indiyədək 4 dəfə - 2011, 2013, 2015 və 2017-ci illərdə Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil olunub. UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Avropa Şurasının, ISESCO-nun və digər beynəlxalq təşkilatların dəstəklədiyi bu forumlar "Bakı prosesi" çərçivəsində irəli sürülmüş ideyaların daha geniş miqyasda təşviqinə sanballı töhfə olub. Dünyada mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişaf etdirilməsinə xidmət edən bu kimi nüfuzlu beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi həm də ölkəmizə, onun multikulturalizm sahəsində əldə etdiyi böyük uğurlara beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir.

2017-ci ilin may ayında Bakıda keçirilmiş IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da müzakirə olunan mövzu və ideyalar baxımından "Bakı prosesi"nin inkişafına xidmət edib. "Mədəniyyətlərarası dialoqun inkişafı: insan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən möhtəşəm tədbir kifayət qədər səmərəli müzakirələrlə yadda qalaraq respublikamızla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması baxımından unikal təbliğat platforması olub. Həmin tədbirdə çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun "Bakı prosesi" çərçivəsində keçirildiyini xüsusi vurğulayıb: "Azərbaycan 2008-ci ildə çox vacib prosesin təşəbbüskarı olmuşdur və o, sonradan "Bakı prosesi" adlandırılmışdır. Bu gün həmin təşəbbüs beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir".

Azərbaycanın təklifi ilə forum çərçivəsində ilk dəfə Beynəlxalq Təşkilatların Yüksək Səviyyəli Toplantısının keçirilməsi də mühüm məqamlardan biri kimi qeyd olunmalıdır. "İnsanların təhlükəsizliyi üzrə müştərək məsuliyyət: davamlı inkişaf üzrə dayanıqlı və inklüziv cəmiyyətlərin qurulması" mövzusuna həsr edilmiş toplantı Azərbaycan hökuməti, Avropa Şurası, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, ISESCO, BMT-nin Dünya Turizm Təşkilatı və FAO ilə tərəfdaşlığı əsasında təşkil edilib. Toplantının keçirilməsində məqsəd dünyanın siyasi, iqtisadi, mədəni, sosial, maliyyə və digər beynəlxalq qurumların insanların təhlükəsizliyi, davamlı inkişafı və inklüziv cəmiyyətlə bağlı qarşıda duran məsələləri müzakirə etmək olub.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva deyib ki, bu təşəbbüs resursları səfərbərliyə almaq, o cümlədən dünyanı daha təhlükəsiz etmək üçün birgə səylərin göstərilməsində əlavə platforma olacaq: "Ona görə, beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə birinci yüksək səviyyəli toplantının keçirilməsi mədəniyyətlərarası anlaşmanı, tolerantlığı, qarşılıqlı hörməti, qlobal vətəndaşlıq etikasını, müştərək məsuliyyətimizi təmin edəcək".

Müzakirələr zamanı tədbir iştirakçıları Azərbaycan multikulturalizminin inkişafında Heydər Əliyev Fondunun da misilsiz xidmətlərini xüsusi vurğulamışlar. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, millətləri və dinləri bir-birinə yaxın edən mühüm siyasi təşəbbüslərdən başqa Azərbaycan dünyanın müxtəlif yerlərində humanitar və xeyriyyə layihələri də həyata keçirirlər.

Bu və digər forumlar, konfranslar vasitəsilə dialoq mühitinin yaradılması, nəzəri-praktiki bilik mübadiləsi, konstruktiv debat və müzakirələr üçün platformanın formalaşdırılması deməyə əsas verir ki, Bakı şəhəri həm də intellektual müzakirələr məkanına çevrilib. Ötən il respublikamızın paytaxtında keçirilmiş V Bakı Beynəlxalq Humanitar Forumu 2008-ci ildən başlayan "Bakı prosesi"nin məntiqi davamı olmaqla respublikamızın ictimai həyatının müxtəlif sahələrində əldə etdiyi nailiyyətlərin Avropa və beynəlxalq səviyyədə etirafı kimi dəyərləndirilməlidir.

Bu bir daha göstərir ki, Azərbaycanın daxili siyasətində sosial məsələlər mühüm paya malik olduğu kimi, xarici siyasətində də əsas hədəflərindən biri mədəniyyətlər arasında dialoq və əməkdaşlıq platformasının formalaşdırılmasıdır. Beləliklə, çoxkonfessiyalı və çoxmədəniyyətli ölkə olması, tolerant sistemin formalaşması, seçkili və hökumət qurumlarında müxtəlif millətlərdən olan Azərbaycan vətəndaşlarının təmsilçiliyi, müxtəlif mədəniyyətliliyin inkişafını stimullaşdıran qanunvericiliyin mövcudluğu ölkəmizi multikulturalizm ətrafında gedən beynəlxalq diskussiyaların mərkəzinə çevirir.

IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda çıxış edən Prezident İlham Əliyev Azərbaycanın multikulturalizm sahəsində zəngin ənənələrinin olduğunu xüsusi vurğulamışdır: "Bizim coğrafiyamız və tariximiz, habelə Azərbaycandakı inkişaf onu nümayiş etdirir ki, mədəniyyətlərarası dialoq həm tarixən, həm də bu gün vacib məsələlərdən biri olaraq qalır. Çünki əks-təqdirdə, dünya daha çox təhlükələrə məruz qalacaqdır.

Tarix, ənənələr və coğrafiyamız bizə onu diktə edib ki, Azərbaycan sivilizasiyaların qovuşduğu bir məkan ola bilər və bu, məhz belə də olmalıdır. Əsrlər boyu Azərbaycanda xalqlar həmişə müxtəliflik mühitində yaşayıb. Multikulturalizm, etnik və dini müxtəliflik tariximizin bir parçası və bugünkü reallıqdır. Biz bununla fəxr edirik".

## "Bakı prosesi" qlobal hərəkata çevrildi

"Bakı prosesi" çərçivəsində Azərbaycan paytaxtı 2011-2016-cı illərdə I, II, III, IV və V Bakı Beynəlxalq Humanitar forumlarına evsahibliyi edib. Xatırlatmaq lazımdır ki, belə bir forumun keçirilməsi təşəbbüsü ilə ilk dəfə 2010-cu ilin yanvarında Azərbaycan və Rusiyanın dövlət başçıları çıxış ediblər. Prezident İlham Əliyevin 24 oktyabr 2011-ci il tarixli digər fərmanına əsasən Bakı Beynəlxalq Humanitar Forumunun müvəffəqiyyətlə keçirilməsi və beynəlxalq miqyasda qaldırdığı problemlərin aktuallığı nəzərə alınaraq onun ənənəvi şəkildə təşkili zəruri sayılıb. "Bakı prosesi" çərçivəsində keçirilən humanitar forumların məqsədi XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavablar axtarmaq, növbəti onilliklər üçün müvafiq strategiyanı müəyyən etməkdir.

V Bakı Beynəlxalq Humanitar Forumu istər iştirakçıların sayı və nüfuzu, istərsə də müzakirə olunan mövzuların elmi-praktik əhəmiyyəti baxımından bütün beynəlxalq ictimaiyyətin diqqət mərkəzində olub. Forumun işində dünyanın 80-ə yaxın ölkəsindən 400-dən çox nümayəndə, o cümlədən 15 Nobel mükafatı laureatı iştirak edib. Nüfuzlu alimlərin, dövlət və hökumət nümayəndələrinin Azərbaycana gəlişi, real vəziyyətlə tanış olması ölkəmizin üzləşdiyi münaqişə ilə bağlı reallıqların dünyaya çatdırılması və Ermənistanın ifşası baxımından da az əhəmiyyət kəsb etmir. "Multikulturalizmin müxtəlif modelləri: nəzəriyyədən humanist təcrübəyə doğru", "İnsanların kütləvi yerdəyişməsi şəraitində insan kapitalının qorunmasının önəmi davamlı inkişafın əsası kimi", "Jurnalistikanın informasiya dövrünə transformasiyası və onun sivilizasiyalararası dialoqun təmin edilməsində rolu", "Davamlı inkişaf və ekoloji sivilizasiya", "Molekulyar biologiya, biofizika, biotexnologiya və müasir tibb sahəsində kadr hazırlığı məsələləri: innovativ və etik problemlər" forumun əsas müzakirə mövzuları kimi aktuallığı ilə seçilib və böyük maraq doğurub.

## Gələcək vəd edən həqiqətlər

Ümumiyyətlə, "Bakı prosesi" qlobal çağırış və problemlərin müzakirəsinə yeni nəfəs verməklə yanaşı, respublikamızın multikulturalizm və tolerantlıq sahəsində əldə etdiyi uğurların təbliği baxımından da əhəmiyyətlidir. Bu gün Azərbaycan dövlətinin həyata keçirdiyi xoşməramlı siyasət - müxtəlif mədəniyyət və qitələrin qovuşuğunda yerləşən ölkəmizin geosiyasi vəziyyəti və mədəni zənginliyi "Bakı prosesi" çərçivəsində mədəniyyətlərarası dialoq təşəbbüslərini qlobal səviyyəyə yüksəltməyə imkan yaradıb. Başqa sözlə, Azərbaycan ölkə daxilində etnik-mədəni mənsubiyyətindən asılı olmayaraq bütün xalqlara eyni münasibət göstərməklə onlar arasında qarşılıqlı anlaşma, dostluq və əməkdaşlıq münasibətlərini dəstəkləyir. Eyni zamanda bu təcrübəni müxtəlif mədəniyyətlərə və sivilizasiyalara mənsub dövlətlər arasında da təbliğ edərək dialoqun inkişafına nail olur.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***